# RUHUN SARSILMAZ QALASI: AĞDAMIN QƏHRƏMANLIQ DASTANI

Son günlər bəzi şəxslər tərəfindən Azərbaycanın qeyrət qalası olan Ağdam və onun mərd övladları haqqında səsləndirilən əsassız fikirlər nəinki tarixi reallığı təhrif edir, həm də vətən uğrunda canından keçən minlərlə şəhidimizin ruhuna hörmətsizlikdir. "Ağdamlılar döyüşməyib" demək üçün gərək tarixdən bixəbər, ya da vicdandan uzaq olasan.

Son günlərdə bəzi sosial media platformalarında və ictimai müzakirələrdə bəzi insanlar Azərbaycan xalqının birliyini hədəf alan, xüsusilə Ağdam bölgəsinin mərd övladlarını "qorxaqlıqda" ittiham edən çıxışları sadəcə bir şəxsə deyil, Azərbaycanın bütöv döyüş tarixinə qarşı edilmiş bir təxribat törədirlər. Tarixi faktları, rəqəmləri və qanla yazılmış həqiqətləri kənara qoyub, minlərlə şəhidin ruhunu sızladacaq qədər ağır böhtanlar atmaq həm vicdansızlıq, həm də xalqa xəyanətdir. Ağdam - sadəcə bir coğrafi ad deyil, Azərbaycanın Qarabağdakı qeyrət qalası, düşmənə qarşı ən uzunmüddətli və ən qanlı müqaviməti göstərmiş bir istehkamdır.

Ağdam Birinci Qarabağ müharibəsində ən ağır zərbəni alan, lakin son ana qədər sınmayan yeganə rayondur. Bu torpaq 6500-dən çox şəhid verib. Bu rəqəm sadəcə statistika deyil, hər bir evdən gələn fəryad, hər küçədən ucalan qəhrəmanlıq nidasıdır. 5 min qazisi olan bir bölgənin igidliyinə şübhə etmək rəzalətdir.

Təxribat xarakterli çıxışlarda elə tfikir tformalaşır ki, guya ağdamlılar savaş meydanından qaçıblar. Tarixi gerçəklərə və hərbi arxivlərə istinad edərək əminliklə söyləyə bilərik ki, bu insanlar qaçmayıblar, onlar vətən daşına dönüblər. Ağdamlılar təkcə 90-cı illərdə deyil, 44 günlük Vətən müharibəsində də ön cəbhədə şir kimi vuruşublar.

Xalqın arasına nifaq salmaq, bölgəçilik etmək və qəhrəman bir elin ünvanına böhtan atmaq heç bir mənəviyyata sığmır. Ağdam Azərbaycanın döyünən ürəyi, qeyrət rəmzidir. Bu reallığı dəyişməyə heç kimin gücü çatmaz!

Ağdamlıların döyüşkənlik ruhunu ölçmək üçün onun verdiyi qurbanlara baxmaq kifayətdir. Birinci Qarabağ müharibəsi illərində Ağdam rayonu 6500-dən çox şəhid vermişdir. Bu, o dövrdəki hərbi itkilərimizin böyük bir hissəsidir. Şəhidlərimizin qanı ilə suvarılmış Ağdam torpağında elə bir ailə tapmaq çətindir ki, oradan bir tabut çıxmasın və ya bir qazi qəhrəmanlıq göstərməsin.

Müharibənin odundan-alovundan keçmiş 5 mindən çox ağdamlı qazimiz bu gün də aramızda o döyüşlərin canlı şahidləri kimi yaşayırlar. Gözünü, ayağını, sağlamlığını o torpaqlarda qoyan insanlara "qaçıblar" demək, onların yarasına duz basmaq deyil, birbaşa onların qəhrəmanlığını danmaqdır. Ağdamlılar qaçmayıblar, onlar son ana qədər, şəhər hər tərəfdən mühasirəyə alınana, bütün texnika tükənənə qədər küçə-küçə, ev-ev vuruşublar.

Ağdam torpağı Azərbaycan ordusuna və tarixinə tam 16 Milli Qəhrəman bəxş edib. Bu rəqəm bir rayon üçün müqayisəolunmaz bir fəxarət göstəricisidir. Gəlin o adlara və onların göstərdiyi şücaətlərə bir daha nəzər salaq:

1.Allahverdi Bağırov: O, tək bir komandir deyil, Ağdamın xilaskar ruhu idi. Xocalı faciəsindən sonra yüzlərlə azərbaycanlı əsiri ermənilərin əlindən alan, düşmən komandirlərini qabağında diz çökdürən məhz Allahverdi idi.

2.Asif Məhərrəmov (Fred Asif): "Ağdamın aslanı" adını qazanan, ağır yaralı olmasına baxmayaraq cəbhəni tərk etməyən, öz batalyonu ilə düşmənə qan udduran bir sərkərdə.

3.Yelmar Edilov: Çıldıranda, Sırxavənddə göstərdiyi igidliklər dillər əzbəridir. O, kəşfiyyat qrupu ilə düşmən arxasına keçib ən strateji nöqtələri məhv edirdi.

4.Canpolad Rzayev: Tankı ilə düşmənin üstünə təkbaşına gedən, Xramort kəndində qəhrəmancasına həlak olan igid.

5.Muxtar Qasımov: Həkim olmasına baxmayaraq, yaralıları atəş altından çıxararkən özü şəhidlik zirvəsinə ucaldı.

6.Yusif Mirzəyev: Ağdərə və Ağdam istiqamətindəki döyüşlərdə əsgərlərinə nümunə olan komandir.

7.Natiq Əhmədov: Düşmən tanklarını sıradan çıxaran, qorxu nədir bilməyən döyüşçü.

8.Baxşeyiş Paşayev: Xocalı və Ağdam uğrunda gedən döyüşlərin əfsanəvi snayperçisi.

9.Faiq Ağayev: Şəhid olana qədər düşmənin onlarla texnikasını sıradan çıxaran topçu.

10.İxtiyar Qasımov: Düşmən hücumunun qarşısını alarkən canını fəda edən vətən oğlu.

11.Rövşən Hüseynov: Əsgərlərini mühasirədən çıxarmaq üçün özünü qurban verən fədakar döyüşçü.

12.Səfiyar Behbudov: Zirehli texnikada son ana qədər vuruşan tankçı.

13.Tahir Həsənov: Kəşfiyyat tapşırığını yerinə yetirərkən düşmənə təslim olmayan şəhid.

14.Əli Hacıyev: Ağdamın hər qarış torpağı üçün can qoyan qəhrəman.

15.Nadir Əliyev: Daxili İşlər Nazirliyinin əməkdaşı olaraq ön cəbhədə dastan yazanlardan.

16.Nofəl Quliyev: Düşmən mühasirəsini yarmaq üçün canını fəda edən fədai.

Bu qəhrəmanların hər biri Ağdamın "qorxaq" yox, "vuran əli" olduğunun sübutudur. Onların hər birinin həyatı bir roman, bir dastan mövzusudur.

Ağdamın bu gün xarabalıq olması onun qorxaqlığının deyil, onun məğrurluğunun nişanəsidir. Ermənilər Ağdamı ona görə yerlə-yeksan etdilər, daşını daş üstə qoymadılar ki, bu şəhər onlara ən ağır dərsləri vermişdi. Ağdam mülki əhalisi ilə, qocasıcavanı ilə silahlanıb "məhəllə batalyonları" yaradan və ordu hələ tam formalaşmadığı dövrdə vətəni qoruyan yeganə mərkəz idi. Əgər ağdamlılar qaçsaydılar, ermənilər Ağdamı belə vəhşiliklə dağıtmazdılar; onlar oradakı hər bir evə, hər bir divara qarşı nifrət püskürürdülər, çünki o evlərin hər biri bir səngər idi.

Təxribat törətmək üçün dəridənqabıqdan çıxanların çıxışları təkcə ağdamlıları deyil, bütövlükdə Azərbaycanın birliyini hədəf alır. Biz 44 günlük Vətən müharibəsində "Dəmir Yumruq" ətrafında birləşərək sübut etdik ki, bizim üçün "bölgə" yox, "VƏTƏN" var. Şuşanı alanların arasında ağdamlı da vardı, bakılı da, naxçıvanlı da, lənkəranlı da, cəlilabadlı da, biləsuvarlı da, masalllı da, salyanlı da, şəkili də, qazaxlı da, qubalı da. qusarlı da, zaqatalalı da, balakənli də, tovuzlu da və s. Bir bölgəni hədəfə qoymaq xalqın arasına nifaq toxumu səpməkdir ki, bu da birbaşa düşmən dəyirmanına su tökməkdir.

Ağdam Azərbaycanın hərb tarixinin onurğa sütunudur. 6500 şəhidin qanı tökülən torpağa dil uzatmazdan əvvəl, insan bir anlıq Şəhidlər Xiyabanına baxmalıdır. Oradakı başdaşlarında yazılan "Ağdam" sözü bir mənsubiyyət deyil, bir şərəf möhrüdür. Ağdam dünən vuruşub, bu gün qurulur, sabah isə yenə Azərbaycanın ən qüdrətli qalası olacaq!

Azərbaycan xalqının arasına nifaq salmaq məqsədilə sosial şəbəkələrdə həyasızcasına iyrənc çıxışlar edən bu cəsuslar öz böhtanları ilə Azərbaycanın bütöv döyüş tarixinə qarşı edilmiş bir təxribat törədirlər. Tarixi faktları, rəqəmləri və qanla yazılmış həqiqətləri kənara qoyub, minlərlə şəhidin ruhunu sızladacaq qədər ağır böhtanlar atmaq həm vicdansızlıq, həm də xalqa xəyanətdir. Yuxarıda qeyd edildiyi kimi Ağdam - sadəcə bir coğrafi ad deyil, Azərbaycanın Qarabağdakı qeyrət qalası, düşmənə qarşı ən uzunmüddətli və ən qanlı müqaviməti göstərmiş bir istehkamdır.

Təkrar olsa da deməliyik ki, Ağdamın bu gün xarabalıq olması onun qorxaqlığının deyil, onun məğrurluğunun nişanəsidir. Ermənilər Ağdamı ona görə yerlə-yeksan etdilər, daşını daş üstə qoymadılar ki, bu şəhər onlara ən ağır dərsləri vermişdi. Ağdam mülki əhalisi ilə, qocası-cavanı ilə silahlanıb "məhəllə batalyonları" yaradan və ordu hələ tam formalaşmadığı dövrdə vətəni qoruyan yeganə mərkəz idi. Əgər ağdamlılar qaçsaydılar, ermənilər Ağdamı belə vəhşiliklə dağıtmazdılar; onlar oradakı hər bir evə, hər bir divara qarşı nifrət püskürürdülər, çünki o evlərin hər biri bir səngər idi.

Ağdam Azərbaycanın hərb tarixinin onurğa sütunudur. 6500 şəhidin qanı tökülən torpağa dil uzatmazdan əvvəl, insan bir anlıq Şəhidlər Xiyabanına baxmalıdır. Oradakı başdaşlarında yazılan "Ağdam" sözü bir mənsubiyyət deyil, bir şərəf möhrüdür.

Ağdam dünən vuruşub, bu gün qurulur, sabah isə yenə Azərbaycanın ən qüdrətli qalası olacaq!

Azərbaycanın dövlətçilik və mübarizə tarixində elə regionlar var ki, onlar sadəcə inzibati vahid deyil, həm də xalqın müqavimət simvoludur. Bu simvolların başında isə Ağdam dayanır. Son günlər bəzi vətən xainlərinin sosial şəbəkələrdə Ağdam əhalisini hədəf alan, onları "vuruşmamaqda" və "torpağı qoyub qaçmaqda" ittiham edən çıxışları nəinki tarixi reallıqdan uzaqdır, həm də bu vətən üçün canını fəda etmiş minlərlə şəhidin ailəsinə qarşı törədilmiş mənəvi terrorudur. Ağdamlılar qaçmayıblar; onlar Azərbaycan ordusunun hələ tam formalaşmadığı bir dövrdə, əliyalın şəkildə düşmən ordusunun qarşısında polad sədd kimi durublar.

Bir xalqın və ya bölgənin fədakarlığını anlamaq üçün onun verdiyi itkilərə baxmaq kifayətdir. Yuxarıda qeyd etdik ki, Ağdam hələ Birinci Qarabağ müharibəsi zamanı 6500-dən çox şəhid vermişdir. Bu rəqəm o dövrün ən yüksək göstəricisidir. Bu, hər küçədən bir qəhrəman, hər evdən bir tabut deməkdir. 5000 qazi - bu, minlərlə insanın bədəninin bir parçasını o torpaqlarda qoyması deməkdir. 16 Milli Qəhrəman - bu, Ağdamın Azərbaycanın hərb tarixinə vurduğu ən böyük möhürdür.

Bu qədər itki verən bir elə "qaçıblar" demək üçün insan gərək ya tamamilə qərəzli olsun, ya da milli mənsubiyyətini itirsin.

Ağdamın müdafiəsindən danışanda Milli Qəhrəman Allahverdi Bağırovun adını çəkməmək qeyri-mümkündür. O, təkcə komandir deyil, Ağdamın ruhu idi. 1992-ci ilin yanvarında Allahverdi Bağırovun rəhbərliyi ilə həyata keçirilən kəşfiyyat əməliyyatı nəticəsində düşmənin onlarla canlı qüvvəsi məhv edildi. Xocalı faciəsi zamanı o, erməni tərəfi ilə danışıqlara gedərək yüzlərlə əsirimizin, qadın və uşağımızın geri qaytarılmasını təmin etdi. Allahverdi Bağırovun tabutu önündə hətta düşmən generallarının ehtiramla dayanması onun necə bir sərkərdə olduğunun sübutu idi. Onun kimi minlərlə oğul Ağdamın hər kəndi, hər təpəsi uğrunda son damla qanına qədər vuruşub.

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 7-ci səhifədə)*

Daha bir əfsanə - Asif Məhərrəmov (Fred Asif). Ağdamın müdafiəsi üçün öz könüllü batalyonunu yaradan Asif, ağır yaralı olmasına, xəstəlikdən əziyyət çəkməsinə baxmayaraq səngəri tərk etmədi. Onun rəhbərlik etdiyi döyüşlərdə ermənilər minlərlə itki verərək geri çəkilməyə məcbur olmuşdular. Fred Asif və onun əsgərləri göstərdilər ki, Ağdamın müdafiəsi sadəcə hərbi yox, həm də bir namus məsələsidir.

2020-ci ilin payızında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusu qisasını aldı. 44 günlük müharibədə də ön cəbhədə minlərlə Ağdamlı gənc vuruşurdu və bu gənclərdən 50-dən çoxu şəhidlik zirvəsinə yüksəldi, 100-ə yaxın ağdamlı isə yüngül və ağır yaralanaraq qazi kimi adlarını Azərbaycanın hərb tarixininə adlarını qızıl hərflərlə yazdılar. Onlar həm 90-cı illərdəki atalarının qisasını aldılar, həm də Ağdamın qəhrəmanlıq estafetini davam etdirdilər. Bu gün Ağdam yenidən qurulur. "Ağıllı şəhər" konsepsiyası ilə bərpa olunan bu torpaq, tezliklə bölgənin ən

## RUHUN SARSILMAZ QALASI:

# AĞDAMIN QƏHRƏMANLIQ DASTANI



güclü iqtisadi və mədəni mərkəzinə çevriləcək.

Bəzi erməni dəyirmanına su tökən şəxslərin məqsədi xalqın arasına nifaq salmaq, bölgəçilik toxumu səpməkdir. Bir azərbaycanlı üçün "Ağdamlı", "Bakılı", "Gəncəli" bölgüsü yoxdur. Biz hamımız Azərbaycanlıyıq! Bir bölgəni təhqir etmək bütöv Azərbaycanı, dövlətimizi və bayrağımızı təhqir etməkdir. Bu cür təxribatlara qarşı hər bir vətəndaş ayıq-sayıq olmalı, tarixi həqiqətləri bilməyənlərə öyrətməlidir. Ağdam var idi, var və əbədi olacaq!

Ağdamın şərəfi Azərbaycanın şərəfidir. 6500 şəhidin uyuduğu torpağa böhtan atanlar tarix qarşısında və gələcək nəsillər qarşısında cavab verəcəklər. Ağdamlılar qaçmayıblar - onlar vətən uğrunda can verib, vətəni yaşadıblar. Şəhidlərimizin ruhu qarşısında baş əyirik! Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin, ruhları şad olsun, qəbirləri nurla dolsun! Amin! Amin ya Rəbbəl aləmin! Sözümü bütün türk dünyasının misilsiz istiqlal şairi Mehmed Akif Ərsoyun iki dəyərli misrası ilə bitirmək istəyirəm:

"Ey şəhid oğlu şəhid, istəmə bəndən makbər,
Sana ağuşunu açmış duruyor Peyğəmbər!"

***Mövsüm ƏHMƏD,***
***yazşıçı-dramaturq***